NƏSİMAN YAQUBLU

# CÜMHURİYYƏT QURUCULARI

BAKI – 2018

# BEHBUD XAN CAVANŞİR

(1877–1921)



Azərbaycanın görkəmli dövlət xadimi Behbud xan Cavanşir 1877-ci ildə keçmiş Tərtər qəzasının Azad Qaraqoyunlu kəndində anadan olub. 1890-cı ildə orta təhsilini Tiflisdə almandilli realnı məktəbdə alıb. 1902-ci ildə Almaniyada Freyburq Dağ-Mədən Akademiyasına daxil olub. B.Cavanşir Almaniyadan İngiltərəyə gedərək, Londonda ingilis dilində ixtisasartırma kursunda oxuyub. O, 1907-ci ildə Vətənə qayıdıb və milyonçu Şibayevin neft sənayesində çalışıb. Bakıda fəaliyyət göstərən Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbərliyinə seçilib. 1918-ci ilin iyunun 17-də F.X.Xoyskinin təşkil etdiyi ikinci Hökumət kabinəsində Daxili İşlər naziri, həmin ilin oktyabrın 6-da baş verən kabinədaxili dəyişikliklərdən sonra A.Aşurovun Poçt və Teleqraf naziri təyin olunması ilə bağlı Ticarət və Sənaye naziri vəzifəsini də icra edib. B.Cavanşir Azərbaycan Parlamentinin üzvü olub.

Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra N.Nərimanovun tapşırığı ilə B.Cavanşir Cənubi Qafqaz Soveti Xarici Ticarət təmsilçisi olaraq müasir neft-mədən avadanlığı almaq üçün Almaniyaya göndərilib. O, yolüstü İstanbulda həmyerlisi Ə.Ağayevin ailəsi ilə görüşüb. 1921-ci ilin 17 iyulunda axşam evdən çıxıb küçə ilə gedərkən arxadan Daşnaksütyun partiyasının üzvü Misak Torlakyan tərəfindən güllə ilə qətlə yetirilib.

B.Cavanşir hökumətdə tutduğu vəzifələrdən uzaqlaşdıqdan sonra da əsas fəaliyyətini parlamentdə davam etdirdi. Eyni zamanda o, 1919-cu ilin iyulun 18-də "Dəyanət" kommersiya şirkəti açdı və xarici ticarətlə məşğul oldu[12].

B.Cavanşir təhsil aldığı Almaniyadan yumşaq buğda növləri gətirib Qarabağda əkinçilikdə istifadə etmişdi. Maraqlıdır ki, Qarabağa ilk avtomobili gətirən və bu bölgənin yollarını abadlaşdıran da B.Cavanşir olmuşdur.

1918-1920-ci illərdə Bakıda təntənəli "Azərbaycan gecələri" konsertinin və bir çox cəmiyyətlərin təşkili də onun adı ilə bağlıdır.

Bəzi araşdırmalarda B.Cavanşirin də M.Hacınski ilə birlikdə Sovet Rusiyası ilə yaxınlaşmaq, diplomatik münasibətlər qurmaq cəhdləri qeyd olunur.

**1920-ci ilin aprelin 27-də Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra peşəkar mühəndis kimi tanınan və xariclə güclü əlaqələri olan B. Cavanşir neft sənayesi sahəsində çalışmışdır.** Həmin ilin sonunda N.Nərimanov onu müasir neft-mədən avadanlığı almaq üçün Almaniyaya göndərdi (6). B.Cavanşir yolüstü İstanbulda həmyerlisi Ə.Ağaoğlunun evində qaldı. Bir gecə küçə ilə gedərkən arxadan Daşnaksütun partiyasının üzvü Torlakyan tərəfindən atılan güllə ilə qətlə yetirildi.



**B.Cavanşirin qətlə yetirildiyi yer: İstanbul, Pera otelinin yanı.**

Tanınmış tədqiqatçı V.Quliyevin "Ağaoğlular" kitabında həmin hadisəni Əhməd bəyin qızı Süreyya xanım belə təsvir edir: "Atam Maltadan qayıtdıqdan sonra erməni dostlarından bir professor bizə gələrək, atamın ermənilərin qara siyahısında olduğunu, atamı sevən dost kimi onu xəbərdar etməyi özünə vəzifə bildiyini və buna görə də hərəkət etmək lazım gəldiyini söylədi. Azərbaycanın Daxili işlər naziri olmuş Behbud xan Cavanşirin də ermənilərin qara siyahısında olması xəbərini almışdıq. O arada Cavanşir bəy xanımı və iki qardaşı ilə Parisə getmək üçün İstanbula gəlmişdi. Özü vəziyyətə tez uyğunlaşan adam idi və bizim Şahzadə bağındakı evimizdə beş gün gizli yaşadı. Ancaq rus əsilli xanımı bu həbs həyatına dözə bilməyəcəyini söylədiyindən onlar evimizi tərk edib "Pere Palas" mehmanxanasında yerləşdilər. Ertəsi gün

[12] İ. Əliyeva. Cavanşir nəslinin nazir oğlu. "Azərbaycan" qəzeti, 5 avqust 2015.